# Azərbaycanın iqlim məsələlərində liderlik mövqeyi




**COP29 sammiti artıq dünya miqyasında Azərbaycan üçün möhtəşəm uğur kimi qəbul olunur. Sammitdə Azərbaycanın iqlim təşəbbüslərinin qlobal miqyasda dəstək qazanması, eləcə də Paris Sazişinin prinsipial 6.4-cü maddəsi üzrə ortaq məxrəcə gəlməsi bəşəriyyət üçün tarixi addım oldu. Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının təşkilində həm ölkə, həm də bütün dünya üçün yeni standartlar müəyyən etdi.**

Bütün toplantılarda yaradılan işgüzar dialoq mühiti, iqlim dəyişmələri ilə mübarizə üçün konkret və nəticəyönlü qərarların alınması Azərbaycanın bu sahədə həyata keçirdiyi genişmiqyaslı fəaliyyətin nəticəsi kimi qəbul edilir. İqlim böhranı ilə mübarizə hər bir ölkənin borcudur, amma bu çətin vəzifəni üzərinə götürmək və dünya dövlətlərini bir araya toplamaq peşəkarlıq və möhkəm iradə tələb edir.

**(davamı 11-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Azərbaycanın nümayiş etdirdiyi təşkilatçılıq qabiliyyəti və bu sahədə atdığı addımlar dünya ölkələri üçün örnəkdir. COP29-a ev sahibliyi edən ölkə olaraq Azərbaycan bütün iqlim müzakirələrinə geniş spektrdə baxış təqdim etdi və bu təşəbbüsün nəticələri artıq real və ölçüləbilən səviyyədədir.

Bakıda toplanan 196 ölkədən 72 min iştirakçı, onların arasında 80 ölkənin liderləri - prezidentlər, vitse-prezidentlər və baş nazirlər Azərbaycanın iqlim diplomatiyasının nə qədər geniş auditoriyaya malik olduğunu nümayiş etdirdi. Tədbirin yüksək səviyyədə təşkil olunması isə Azərbaycanın təkcə ev sahibliyi deyil, həm də dünyaya iqlim məsələlərində liderlik edə biləcəyini göstərir. Bəşəriyyətin ən böyük problemlərindən birinə - iqlim böhranına qarşı mübarizə üçün dünya ölkələrinin rəhbər və səlahiyyətli şəxslərinin həmrəy olub çıxış yollarını müzakirə etməsi ölkəmizin uğurunu təcəssüm etdirir.

Azərbaycanın yüksək peşəkarlıqla təşkil etdiyi COP29 ölkəmizin beynəlxalq arenada bir daha özünütəsdiqidir. Dost və qardaş ölkələrin də dəstəyi xüsusi vurğulanlamalıdır. Bu mənada, Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstan Prezidenti Rumen Radev ilə görüşü olduqca təqdirəlayiqdir. Görüş təkcə iki dövlət arasında əməkdaşlığın güclənməsi deyil, həm də Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfənin göstəricisi oldu. Azərbaycanın Avropaya "yaşıl enerji" ötürmək və bu sahədə liderlik əzmi Prezident İlham Əliyevin hər görüşündə, hər addımında özünü göstərir. Bununla yanaşı, Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentlərinin üçtərəfli görüşü oldu. Bu tarixi görüşdə üç ölkənin ortaq maraqları fonunda böyük bir addım atıldı. "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalandı. Bu sənəd regionda enerji sahəsində yeni bir dövrün başlanğıcını təsdiqləyir və Azərbaycanın "yaşıl enerji" sahəsində mühüm rol oynadığını ortaya qoyur. Qardaş Türkiyənin cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan da tədbirdəki iştirakı ilə COP29-un önəmini bir daha diqqətə çatdırdı. Türkiyə Prezidenti Azərbaycana səfərdən qayıdarkən təyyarədə jurnalistlərin suallarını cavablandıran zaman deyib: "Səfərimin ikinci mərhələsində mən Bakıda keçirilən Dünya Liderlərinin İqlim Sammitində iştirak etdim. Fürsətdən istifadə edərək, sammitə ev sahibliyi edən qardaşım, Azərbaycan Prezidenti İlham Əliyevə mənə və nümayəndə heyətimə göstərilən müsbət qəbula görə təşəkkürümü bildirmək istəyirəm...".




İtaliyanın Baş naziri Giorgia Meloni isə qeyd edib ki, konsensusa nail olmaq üçün inkişaf etmiş və inkişaf etməkdə olan iqtisadiyyatlar arasında məsuliyyətlərin bölüşdürülməsi və fərqlərin aradan qaldırılması vacibdir: "İtaliya Afrika üçün İqlim Fonduna 4 milyard dollardan çox vəsait ayırır. Biz, həmçinin "yaşıl iqlim", zərər və ziyan fondlarını dəstəkləyirik. Qalıq yanacaq təchizatı üçün vahid alternativ yoxdur. ÜDM-in artımı qlobal miqyasda enerji istehlakını artırır. Biz enerji forumunu geosiyasi silahdan geniş şəkildə əlçatan resursa çevirə bilərik. Sülh naminə Azərbaycana təşəkkür edirik. COP-un uğurlu və ya uğursuz olması bizdən asılıdır".

Qeyd etmək lazımdır ki, dünya Azərbaycanın "yaşıl enerji" sahəsindəki təşəbbüslərini yaxından izləyir, xüsusən də Avropanın kiçik və orta dövlətləri ölkəmizin iqlim məsələsində əsl ümid yerinə çevriləcəyinə inanır. Azərbaycanın "yaşıl enerji" istehsalına dair çağırışları və Şərqdən Qərbə uzanacaq "yaşıl dəhliz" layihəsi təkcə bölgənin deyil, qlobal miqyasda davamlı inkişafı təmin etmək üçün möhkəm təməl formalaşdırır. Bu dövlətlər Azərbaycanın təqdim etdiyi imkanlara böyük həvəslə yanaşır və "yaşıl enerji"yə keçid prosesində ölkəmizin liderliyinə güvənirlər. Həqiqətən də Azərbaycan öz ekoloji sadiqliyi ilə yeni regional əməkdaşlıq nümunəsi ortaya qoyur. Bu "yaşıl dəhliz" təşəbbüsünün reallaşmasında Azərbaycanı dəstəkləyən strateji tərəfdaşlarımız Türkiyə və Gürcüstandır. Bu dövlətlər ilə qurulmuş enerji əməkdaşlığı bütün bölgənin ekoloji və enerji təhlükəsizliyinə müsbət təsir göstərir. Həmçinin Qazaxıstan və Orta Asiya ölkələri də bu dəhlizə qoşulmaq niyyətlərini açıq şəkildə bəyan edir, Şərqi Qərblə ekoloji cəhətdən birləşdirəcək bu cəsarətli təşəbbüsə dəstək olmağa hazır olduqlarını bildirirlər. Genişmiqyaslı əməkdaşlıq yalnız bir layihədən ibarət deyil - bu, əslində bütün bəşəriyyəti təhdid edən iqlim böhranına qarşı ümumi cavabdır. Azərbaycanın "yaşıl enerji" siyasəti yalnız bir ölkə üçün deyil, bütün dünya üçün gələcəyə ümid işığı saçır. Bu təşəbbüs kiçik dövlətlərin öz gücünü və əhəmiyyətini göstərdiyi unikal bir nümunədir. Azərbaycan yalnız iqlim böhranına qarşı mübarizə aparmır, həm də daha ədalətli və dayanıqlı bir dünya üçün çətin, lakin şərəfli bir yolda liderlik edir. Azərbaycanın "yaşıl enerji"yə keçid təşəbbüsləri, gələcək nəsillərə daha "yaşıl dünya" miras qoymaq üçün atdığı qətiyyətli addım kimi tarixə düşəcək.

Lakin iqlim dəyişmələrinin kəskin fəsadlarını müəyyən dərəcədə aradan qaldırmayınca əsaslı addım atmaq çətinləşir. Təsadüfi deyil ki, Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Roland Prays COP29 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən təşkil edilmiş "Cənubi Qafqaz və Mərkəzi Asiyada iqlim maliyyəsinin mənzərəsi" mövzusunda keçirilən tədbirdə çıxışı zamanı bildirib ki, bəzi çətinliklər, quraqlıq və su qıtlığı, ekstremal temperatur 3 Cənubi Qafqaz ölkəsində hər il orta hesabla 100 milyon dollardan çox itkiyə səbəb olur. Bu, həm də dünyanın önəmli iqtisadi təşkilatlarının diqqətini də Bakıya yönəldir: "Dünya Bankı "yaşıl enerji"yə keçiddə Cənubi Qafqaz ölkələrinə təhlil və proqramlarla dəstək verir. Adaptasiya və keçidlə bağlı 75-85 faiz investisiyalar özəl sektor tərəfindən qarşılana bilər. Dövlətin resursu yoxdur və özəl sektorla tərəfdaşlıq qaçılmazdır. Dövlət şərait yaratmalıdır ki, özəl sektor bu sahəyə daxil ola bilsin. Maliyyə resursu əldə etmək üçün maliyə mənbəyi alətlərini müəyyənləşdirmək və özəl sektorun qapısını açmaq lazımdır".

Dünyanın qlobal mənzərəsində Azərbaycan lider mövqeyini qoruyur, öz nüfuz dairəsini daha da genişləndirir. Ölkəmiz mühüm təşəbbüslərlə çıxış edərək Yer kürəsinin gələcəyi naminə, daha parlaq sabahlar üçün dayanmadan çalışır. Məhz bu da müsbət ictimai fikrin formalaşmasına şərait yaradır. Bakının ev sahibi olduğu COP29 tədbiri bundan sonra da keçiriləcək tədbirlərə əsaslı istinad nöqtəsi olacaq. Dünya Azərbaycanın inklüziv təşəbbüslərindən bəhrələnərək daha gözəl həyat üçün birgə fəaliyyət göstərəcək.

**Nurlan ABDALOV,**
**"Respublika".**